# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 05 (1666) 17 mart 2018 - ci il Qiymətı 50 qəpik

# Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar diləyirəm.

Azərbaycan torpağında qədim tarixi köklərə malik Novruz bayramı uzaq keçmişlərdən mənəvi dünyamızın ən dərin qatlarınadək nüfuz etmiş, müqəddəs dəyərlərimizin təşəkkülünə töhfələr vermiş və milli düşüncə tərzimizin ayrılmaz tərkib hissəsi olmuşdur. Əcdadımızın nikbin həyat fəlsəfəsini dolğun nümayiş etdirən bu bayram Uca Tanrının nemətlərinə minnətdarlıq duyğusunun təcəssümü, böyük hikmətlə yaradılmış təbiətin ilahi nizamına ehtiramın təzahürüdür. Yurdumuzun çoxəsrlik mədəni sərvətlər xəzinəsində Novruz şərəfli yer tutur.

Gələcəyə inamımızı sarsılmağa qoymayaraq bizi ümidlərlə yaşadıb daim yolumuzu işıqlandıran Bahar bayramına fikir tariximizin görkəmli nümayəndələri həmişə rəğbət bəsləmişlər. Novruz bayramı azadlıq və istiqlal duyğularımızın ifadəsinə çevrilməklə möhtəşəm yubileyi ərəfəsində olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin gerçəkləşməsi və XX əsrin sonlarına doğru xalqımızın müstəqil dövlətçilik idealına yenidən qovuşması üçün zəmin hazırlamış milli özünüdərk amillərindəndir.

Qloballaşma dalğasının sürətlə yayıldığı və dəyişikliklərin qaçılmaz şəkil aldığı indiki dövrdə yazın ölkəmizə gəlişinin ənənəvi rəngarəng mərasimlərlə müşayiət olunması milli köklərə bağlılığımızın təntənəsidir. İnsanlığa xas ülvi dəyərləri yaddaşında toplamış bu əziz bayramın cəmiyyətimizin üzvlərinin vahid mənəviyyat ətrafında daha da yaxınlaşması baxımından müstəsna əhəmiyyəti vardır. Novruzun ümumdünya qeyri-maddi mədəni irsinin şah əsərləri sırasına daxil edilməsi qəlbimizi fərəh hissi ilə doldurur.

Ahəngdar və dinamik yüksəlişə müvəffəq olmuş Azərbaycan bu gün sürətli modernləşmə mərhələsindədir. Ölkəmizin dayanıqlı inkişafına yönələn mühüm islahatlar və hər sahədə özünü göstərən davamlı müasirləşmə meyilləri yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ovqatı ilə həmahəngdir. 2018-ci ilin ictimai-siyasi həyatımızda əlamətdar hadisələrlə zənginliyi bayramın Odlar yurduna builki gəlişinə xüsusi məna qazandırır. Əminəm ki, varlığımızdakı tükənməz yenilikçilik ruhu sayəsində ümummilli mənafelər naminə bütün sınaqlardan bundan sonra da alnıaçıq çıxacaq və taleyüklü məsələlərin layiqincə həllinə nail olacağıq.

Baharı azərbaycançılıq məfkurəsi işığında dünyanın müxtəlif guşələrində bizimlə birgə qarşılayan soydaşlarımıza təbriklərimi yetirirəm. Qoy həmrəyliyimizin rəmzi olan bu el bayramı hər evə xoş əhval gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!



***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 16 mart 2018-ci il.

## BU SAYIMIZDA



ATU-da NOVRUZ ŞƏNLİYİ 2

ATU Dünya Səhiyyə Təşkilatı ilə əlaqələri genişləndirir 3



Eşitmə Sağlamlığı Günü ilə bağlı tədbir 4

Rəhbərlik xanımların 8 mart - Beynəlxalq Qadınlar Gününü təbrik etdi 3




XIII Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib 4

“Sevimli Həkimlər” treninq layihəsinin bağlanış və mükafatlandırma mərasimi keçirildi 2



“Həyatla oyun” tamaşası nümayiş olunub 6

Ümumdünya İmmunitet Günü qeyd edilib 4



IV Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı keçirilib 5

ATU-nun xarici tələbələri Gəncədə “Novruz mühazirəsi”ni dinləyiblər 6

Tələbələrimiz stolüstü tennis turnirinin qalibi seçilib 6

# ATU-da NOVRUZ ŞƏNLİYİ

**Xalqımızın qədim tarixini əks etdirən, milli adət və ənənələrimizi özündə birləşdirən Novruz Bayramı ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Tibb Universitetində də həmişə xüsusu təntənə ilə qeyd olunur. Bu il də ənənə pozulmadı. Martın 16-da universitet rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə geniş bayram tədbiri düzənləndi. Böyük akt zalının foyesində iştirakçılar üçün bayram süfrəsinin açılması ilə başlayan tədbir rəngarəng konsert proqramı ilə davam etdi.**

Bayram tədbirinin aparıcıları – ictimai səhiyyə fakültəsinin II kurs tələbəsi Fidan Həsənli və stomatologiya fakültəsinin I kurs tələbəsi Əli Əliyev bütün iştirakçıları salamlayaraq ilk növbədə səhiyyəmizin inkişafı üçün tələbələrə hər cür şərait yaradan universitet rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Bundan sonra təbrik üçün səhnəyə dəvət olunan universitetin rektoru, professor Gəray Gəraybəyli hörmətli qonaqları, professor-müəllim heyətini və tələbələri bügünkü bayram tədbirində görməkdən məmnunluğunu vurğuladı və ABŞ-ın Viskonsin Lakers Universitetinin professoru Robert Jecklini, Qazaxıstandan universitetimizə elmi ezamiyyətə gəlmiş nümayəndə heyətini xüsusi salamladı.

Xalqımızın səbirsizliklə gözlədiyi Novruz Bayramının müasir Azərbaycanın banisi, ulu öndərimiz Heydər Əliyev tərəfindən dövlət səviyyəli bir bayrama yüksəldildiyini söyləyən rektor səmimi arzularını tədbir iştirakçıları ilə bölüşdü: "Novruz Bayramı xalqımızın, elimizin ən vacib və çox sevilən bayramlarındandır. Çünki bu bayram təbiətə, hər bir insana yeni oyanış, yeni tərəqqi bağışlayır. Məhz bu baharda, aprelin 11-də keçiriləcək növbəti Prezident seçkilərində öz sözümüzü deyəcəyik. Əminəm ki, Azərbaycanın hər bir sahəsində inkişafa nail olan ən layiqli namizədimizə, cənab prezidentimiz İlham Əliyevə səs verərək daha böyük irəliləyişlərə nail olacağıq.

Əziz müəllimlər və tələbələr, mən sizi bu böyük bayram münasibətilə təbrik edir, hər birinizin ailəsinə, yaxınlarına cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram! Hər birinizin ailəsində, qəlbinizdə daim bahar olsun. Bir daha bayramınız mübarək!"



Rektorun alqışlarla qarşılanan təbrikinin ardınca Üzeyir Hacıbəyovun ***"Cəngi"***si səsləndi, Novruz adət-ənənələrini əks etdirən videogörüntü nümayiş olundu. Universitetimizin ***"Şəfa"*** xalq çalğı alətləri ansamblının ifasında ***"Bayram gəlir elimizə"*** musiqisi hamını bayram ovqatına köklədi.

Tamaşaçıların alqış sədaları altında Nisəxanım Rəhimovanın bədii rəhbərliyi ilə səhnəyə çıxan ***"Çinar"*** rəqs ansamblı yenə də bənzərsiz rəqslərlə pərəstişkarlarını heyran qoydu. Stomatologiya fakültəsinin V kurs tələbəsi Nərmin Camalova ingilis, fransız və alman dillərində mahnıları məharətlə və məlahətli səslə ifa etdi. Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Salatın Quliyevanın ifasında Üzeyir Hacıbəyovun ***"Sevgili canan"***ı da tamaşaçı sevgisi ilə qarşılandı.

Musiqi fasiləsində aparıcılar Novruz Bayramının atributlarından olan xonça bəzədilməsi üzrə keçirilən müsabiqədə stomatologiya fakültəsi dekanlığının qalib gəldiyini və əsas məqsədin Tibb Universitetinin adından ***"Körpələr evi"***nə bayram sovqatı aparmaq olduğunu dedilər. Hərbi tibb fakültəsinin VI kurs tələbəsi Eşqin Əsgərov və II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Səmra Bağırlı son illərdə tədbirlərimizin ən yaxşı aparıcıları kimi mükafatlandırıldılar.

Bu gün universitetimizdə Azərbaycan vətəndaşları ilə bərabər 27 xarici ölkədən 1186 tələbə və hazırlıq şöbəsində 605 dinləyicinin təhsil aldığı söylənildi. Hazırlıq şöbəsinin dinləyicisi Əsra Yıldız ölməz sənətkarımız Şövkət Ələkbərovanın ***"Durnalar"*** mahnısını ifa etməklə həm də milli musiqimizə sevgisini nümayiş etdirmiş oldu. Stomatologiya fakültəsinin I kurs tələbəsi Ərəstun Mədədi isə ölkəmizə məhəbbətini İsmayıl Mədədinin ***"Azərbaycan"*** şeirilə çatdırdı.

Tədbirə qonaq qismində təşrif buyurmuş 12 saylı musiqi məktəbinin şagirdi Məlahət Mirzəyevanın ifa etdiyi ***"Ana"*** mahnısı bütün xanımlarımıza bir təbrik hədiyyəsi oldu.

Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Əziz Əhmədlinin və Hərbi tibb fakültəsinin III kurs tələbəsi Nadir Nəbiyevin ifa etdiyi mahnılar da zövqləri oxşadı.

Vətənpərvər şairimiz Eldar İsmayılın ***"Mənim məmləkətim, ürəyim, canım, Ağzımda dilim də Azərbaycandır"*** misralarından sonra 2017-ci il Muğam müsabiqəsinin qalibi Nurlan Namazovun ifasında səslənən ***"Qarabağ şikəstəsi"*** zalda böyük bir coşqu yaradaraq bizi gələcək qələbələrə ruhlandırdı.

Bayram tədbiri tamaşaçıların alqış sədaları altında Azərbacan Respublikasının əməkdar artisti Aybəniz Haşımovanın şagirdi, 7 yaşlı Fatimənin gözəl ifası və rektorun səhnədə ona hədiyyə təqdim etməsi ilə başa çatdı.

*Bayram tonqallarının işğal olunmuş torpaqlarımızda alovlanması arzusu ilə:*

**Arif MƏMMƏDLİ**





# ATU-nun Tədris

# "Sevimli Həkimlər" treninq layihəsinin bağlanış və mükafatlandırma mərasimi keçirildi

**Cərahiyyə Klinikasında "Sevimli Həkimlər" (Dream Doctors) treninq layihəsinin bağlanış və mükafatlandırma mərasimi keçirildi.**

Mərasimi ATU-nun rektoru, professor Gəray Gəraybəyli açaraq, layihənin Bakıda uğurla başa çatması münasibətilə hər kəsi təbrik etdi. İki həftə boyunca layihədə iştirak edən heyətə təşəkkürünü bildirdi: "Layihənin gözlədiyimizdən də, müvəffəqiyyətlə yekunlaşmasını məhz siz təmin etmisiniz. Amma təəssüf ki, pasiyentlərimiz arasında uşaqların sayı da az deyil. Bu uşaqlar müxtəlif diaqnozlarla ölkə xəstəxanalarında müalicə alırlar".

Rektor G.Gəraybəylinin sözlərinə görə, bir çox ölkələrdə xəstə uşaqların müalicəsində incəsənət terapiyasının (art teraoiyasının) müxtəlif növləri artıq geniş istifadə olunmaqdadır: "Bu art-terapiyanın növlərindən biri və ən müasiri klounadanın işirakından istifadə etməkdir. Bir çox xəstə uşaqların müalicəsində tibbi klounların istifadəsinin pioneri İsrailin Dream Doctor Qeyri Hökumət Təşkilatı hesab olunur. Bunlar aktiv fəaliyyətləri ilə həm öz, həm də digər ölkələrdə böyük nüfuz qazanıblar".

ATU-nun rektoru "Sevimli Həkimlər" layihəsinə 2002-ci ildə İsraildə start verildiyi dedi. Layihənin məqsədi uşaq və böyüklərə hər yerdə və hər zaman kömək etməkdir. "Sevimli Həkimlər"in iştirakı ilə həm pasiyentə, həm də ailə üzvlərinə dəstək verilir,



stresləri azaldılır və müalicə prosesi asanlaşdırılır. İsraildə münaqişələr zamanı "Sevimli Həkimlər" sığınacaqlarda uşaqlara və onların ailələrinə stress vəziyyətinə tab gətirməkdə yardım ediblər. "Sevimli Həkimlər" dünyanın müxtəlif ölkələrində təlim proqramları, konfranslar və humanitar missiyalar təşkil edirlər. Layihə İsrailin 29 xəstəxanasını əhatə edib: "Hazırda 200 minə yaxın xəstə uşağın müalicəsində bu üsul kömək edir. ATU olaraq biz də uşaqların müalicəsində dünyada istifadə olunan müasir metodları Azərbaycana gətirmək, yeni üsullardan istifadə etmək fikrindəyik. Layihə martın 5-dən 16-dək Ben Gurion Universitetinin və Soroka Tibb Mərkəzinin doktoru Aleks Geftlerin təşəbbüsü, İsrailin Azərbaycandakı Səfirliyi, Azərbaycan Tibb Universiteti və Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti ilə birgə həyata keçirilib".

Layihə çərçivəsində Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin 30 tələbəsi 5 günlük təlimlərdə iştirak ediblər. Daha sonra Talassemiya Mərkəzi, Onkologiya Mərkəzi və Bakının digər tibb mərkəzlərində təcrübədən keçiblər.

Rektor Gəray Garaybəylinun sözlərinə görə, təlimləri "Dream Doctors" təşkilatının üzvləri, peşəkar tibbi klounlar Penny Hanuka və Vitaly Azarin keçiblər: "Tələbələr tibbi kloun üzrə təlimdə iştirak ediblər, daha sonra bizim klinikalarda, xəstələr üzərində bu işlərin praktik hissəsini həyata keçiriblər".

Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Fərəh Əliyeva çıxışında, layihəyə böyük həvəslə qatıldıqlarını dedi: "Layihədə iştirakla bağlı təklifi məmnuniyyətlə qəbul etdik. Bizə maraqlıydı ki, incəsənətlə tibbin birləşməsindən nə alınacaq?! Çox qədim dövrlərdən gələn həqiqəti yenidən kəşf etdim. İncəsənətin doğurdan da çox böyük qüvvəsi var. Yalnız dərmanlarla deyil, sənətlə də insanların ağrılarını unutdurmaq olar. Xəstə insanlara kiçik ümid verməк, onları həyata bağlamaq olar. Çox şadam ki, bu işdə bizim tələbələr iştirak ediblər".

Daha sonra İsrailin Azərbaycandakı səfiri cənab Dan Stav çıxış edərək, layihədə iştirak edən hər kəsə təşəkkür etdi: "Bu, Azərbaycanda həyata keçirdiyimiz ilk layihədir. Vacib sənət növü hesab edilir. Çünki siz qarşınızdakı xəstə insanları sevindirirsiniz. Mənim daha çox həkim-klounlar diqqətimi çəkdi. Onlar sirkdə işləmirlər, canlı insanlarla çalışırlar. Bu, böyük zəhmət tələb edən ciddi bir işdir".



Tədbirdə peşəkar tibbi klounlar Penny Hanuka və Vitaly Azarin çıxış edərək, iki həftə ərzində həyata keçirilən proqramla bağlı təəssüratlarını bölüşdülər.

Tədbirin sonunda tələbələr sertifikat və hədiyyələrlə mükafatlandırıldılar. İsrailin Azərbaycandakı Səfirliyi tərəfindən hər iki universitet rektoruna da hədiyyə verildi.

**ATU-nun mətbuat xidməti**
**Fotolar Cənnətalı Çingizindir**

# ATU Dünya Səhiyyə Təşkilatı ilə əlaqələri genişləndirir

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Dünya Səhiyyə Təşkilatının ölkəmizdə səfərdə olan nümayəndəsi ilə görüşüb. DST-nin ictimai səhiyyə və səhiyyə sistemləri bölməsinin direktoru Hans Kluge ilə görüşdə əsasən Azərbaycan və DST arasındakı əməkdaşlığın gücləndirilməsində Tibb Universitetinin rolu müzakirə olunub.**



Görüş zamanı direktor Hans Kluge Azərbaycanda əhalinin sağlamlığının qorunması sahəsində görülən işləri yüksək qiymətləndirib. O, DST ilə Azərbaycanın səhiyyə sahəsində fəaliyyət göstərən dövlət qurumları arasında uzun illik əməkdaşlıq mövcud olduğunu bildirib. Qonaq qeyd edib ki, bu əməkdaşlıq çərçivəsində Azərbaycan təmsilçiləri mütəmadi olaraq DST-nin keçirdiyi toplantılarda iştirak edirlər. Bundan əlavə, DST-nin ölkəmizdə ofisi də əməkdaşlığın genişləndirilməsi işində yaxından iştirak edir. Eyni zamanda, DST tərəfindən Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, ictimai sağlamlıq, uşaq və ana ölümünün qarşısının alınması və bir sıra digər məsələlərlə bağlı çoxsaylı layihələr həyata keçirilir. Hans Kluge Dünya Səhiyyə Təşkilatının bu əməkdaşlığı genişləndirilməsi işinə dəstək göstərməyə hazır olduğunu bildirib.

Qonağı salamlayan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ölkəmizlə DST arasında sıx əməkdaşlıqdan məmnunluğunu bildirib və DST-nin Azərbaycan üzrə ofisinin bu işdə böyük töhfəsi olduğunu deyib. G.Gəraybəyli universitetin təmsilçisi qismində DST tərəfindən təşkil olunan bir çox layihələrdə yaxından iştirak etdiyini deyərək gələcəkdə bu əlaqələrin daha da intensivləşdirilməsinin tərəfdarı olduğunu bildirib:

"Azərbaycanda səhiyyə və təhsil sahəsinin inkişafı naminə xeyli işlər görülməkdədir. Bu iki sahənin toqquşma nöqtəsində yerləşən Azərbaycan Tibb Universiteti müəyyən mənada bu prosesin aparıcı qüvvəsidir desəm, yanılmaram. Tibb təhsili sahəsində ən böyük dönüş nöqtələrindən biri ATU-nun rezidentura sisteminə keçidi oldu. Hazırda ATU-da ikipilləli təhsil sistemi mövcuddur". G.Gəraybəyli ATU-da rezidentura pilləsi, rezidentlərin mübadilə proqramı və digər yeniliklər barədə Dünya Səhiyyə Təşkilatının təmsilçilərinə məlumat verdi.

Rektor G.Gəraybəyli universitet daxilində fəaliyyət göstərən klinikalar haqqında da qonağa geniş məlumat verdi. Bildirdi ki, hazırda ATU-nun 4 müasir klinikası fəaliyyət göstərir: Tədris Stomatoloji Klinika, Onkoloji Klinika, Tədris Terapevtik Klinika və Tədris Cərrahiyyə. Klinikaların hər biri zəngin maddi-texniki baza, müasir cihaz və avadanlıqla təchiz edilib. Özünü maliyyələşdirmə ilə fəaliyyət göstərən bu klinikalarda tələbə və rezidentlər həm nəzəri, həm də praktik bilgilərə yiyələnirlər. Tezliklə bu klinikalarda tibbi sığorta sisteminin tətbiqi də nəzərdə tutulub.

Professor G.Gəraybəyli qeyd etdi ki, hazırda qarşıda duran vəzifələrdən biri də dərs proqramlamların yenilənməsi ilə əlaqədardır. Bu məsələdə ATU çoxşaxəli beynəlxalq əlaqələrdən də yararlanmaq niyyətindədir. Çünki hazırda universitet dünyanın bir çox aparıcı ali təhsil müəssisələri ilə aktiv əməkdaşlıq edir. Bundan əlavə, universitetin aparıcı fakültələrindən biri olan Tibbi Profilaktika fakültəsinin adı İctimai səhiyyə fakültəsi ilə əvəz olunub. Bu, həmin ixtisasa yiyələnən gənc həkimlərin diplomunun digər ölkələrdə tanınmasına yardım olacaq. Hazırda İctimai səhiyyə fakültəsində həmin profilə uyğun fənlərin tədrisi istiqamətində işlər görülür.

Daha sonra ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov çıxış edərək universitetdə tətbiq edilən yeniliklərdən danışdı. Onun sözlərinə görə, bir sıra islahatların həyata keçirilməsi üçün universitetdə xüsusi işçi qrupu da yaradılıb.

Görüşdə o da qeyd olunub ki, artıq Azərbaycan Tibb Universiteti Dünya Səhiyyə Təşkilatının (DST) Kimyəvi Risklərin Qiymətləndirilmə Şəbəkəsinin üzvüdür.

Görüşdə iştirak edən DST-nin Azərbaycankı nümayəndəliyinin rəhbəri Kamran Qaraxanov da təmsil etdiyi qurumla ATU arasında əməkdaşlıq üçün təşəkkürünü bildirdi. Qeyd etdi ki, hər iki tərəf bu münasibətlərin daha da sıxlaşması üçün çalışacaq. Görüş zamanı toplantı iştirakçıları Azərbacyanda tibb təhsilinin inkişafı, bu sahədə yeniliklərin uğurlu icrası üçün görüləsi işlər və gələcək planlar haqqında geniş müzakirə apardılar.

Qeyd edək ki, Görüşdə rektorun müşaviri Zülfüqar Musabəyov da iştirak edib.

# Rəhbərlik xanımların 8 mart - Beynəlxalq Qadınlar Gününü təbrik etdi

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi kollektivdəki bütün xanımların 8 mart - Beynəlxalq Qadınlar Gününü təbrik etdi.**





Universitetin Tədris və müalicə işləri üzrə prorektoru Sabir Əliyev Azərbaycan qadınlarının cəmiyyətin çox dəyərli, əvəzedilməz nümayəndələri olduğunu dedi: "Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş edib. Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirib. Analarımız Azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər".

S.Əliyev qarşıdan gələn bayram münasibətilə Azərbaycanın bütün layiqli xanımlarını, həmçinin ATU-da qadın kollektivini təbrik etdi: "Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da 8 Mart - Beynəlxalq Qadınlar Günü sevilən bayramlardandır. Bizim qadınlar hər cür təbrikə, ən böyük sevgiyə layiqdirlər. Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram".



# Qazaxıstanlı magistrlər ATU-da təcrübə keçir

**Azərbaycan Tibb Universiteti dünyanın bir çox ölkələrinin aparıcı ali məktəbləri ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində tələbə və rezidentlərin mübadiləsi aparılır, universitetlərin mütəxəssislərinin mühazirələri təşkil olunur. Mart ayında daha belə bir nümunə ortaya qoyulur.**



Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin 10 nəfər II kurs magistrantlarının mart ayında ATU-da elmi işlərin qurulması, aparılması ilə əlaqədar təcrübə mübadiləsi keçmələrinə dair razılıq əldə olunub.

Həmin universitetin "İctimai səhiyyə", "Tibbi profilaktika işi" və "Tibb" ixtisasları üzrə II kurs tələbələri mart ayında təcrübə keçirlər. Onlar "İnfeksion xəstəliklərin yayılmasının epidemioloji analizi", "Tibbdə elmi-tədqiqat işlərinin aparılması:prinsiplər, metodologiya və praktika" mövzusunda təcrübə keçir.

Bununla əlaqədar Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin II kurs tələbələrinin magistrləri ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərovun və beynəlxalq əlaqələr üzrə prorektor, dosent Nadir Zeynalovun qonağı olublar.

Görüşdə R.Bəylərov magistrlərə Qazaxıstan və Azərbaycan arasında sıx münasibətlərin mövcudluğu haqqında məlumat verdi: "Bizim ölkələr arasında daima dostluq əlaqələri olub. Bu münasibətlər özünü Azərbaycanın dar günündə də göstərib. Mən özüm də təhsil aldığım müddət Qazaxıstanda praktikada olmuşam, xalqlarımız arasında qarşılıqlı hörmətin şahidi olmuşam".

Prorektor R.Bəylərov həmçinin qonaqlara ATU-nun tarixi və fəaliyyəti haqqında da geniş məlumat verdi: "Azərbaycan Tibb Universiteti 1930-cu ildə Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazası əsasında yaradılmışdır. Bu baxımdan, BDU-nun tibb fakültəsinin varisi sayılan universitetimiz özündə az qala 100 illik bir tarixi ehtiva edir. Hazırda ATU Azərbaycanın ən qədim ali məktəbi olması ilə yanaşı, həm də ən nüfuzlu təhsil müəssisələrindən biridir".

Görüşdə N.Zeynalov universitet daxilində fəaliyyət göstərən klinikalar haqqında da qonaqlara geniş məlumat verdi. Bildirdi ki, hazırda ATU-nun 4 müasir klinikası fəaliyyət göstərir: Tədris Stomatoloji Klinika, Onkoloji Klinika, Tədris Terapevtik Klinika və Tədris Cərrahiyyə. Klinikaların hər biri zəngin maddi-texniki baza, müasir cihaz və avadanlıqla təchiz edilib. Özünü maliyyələşdirmə ilə fəaliyyət göstərən bu klinikalarda tələbə və rezidentlər həm nəzəri, həm də praktik bilgilərə yiyələnirlər.

Görüş zamanı qazaxıstanlı magistrantların 11 günlük staj proqramı haqqında fikir mübadiləsi aparıldı, bəzi məqamlara aydınlıq gətirildi. Görüşdə iştirak edən magistrantlar da özləri haqqında məlumatı ATU rəhbərliyinin diqqətinə çatdırdılar.

**ATU-nun mətbuat xidməti**

# XIII Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Martın 9-da ATU-nun Tədris Terapevtik Klinikasında XIII Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**



Konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin "Nefrologiyanın inkişafına yardım" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Böyrəklərin və qadınların sağlamlığı" şüarı altında həyata keçirilib.

Konfransı giriş sözü ilə açan ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iştirakçıları rektorun adından salamlayaraq, onlara uğurlar arzulayıb.

R.Bəylərov bildirib ki, konfransda qaldırılan bütün məsələlər Azərbaycanda nefrologiyanın inkişafına öz töhfələrini verəcək: "Bu konfrans bütün dünyada olduğu kimi "Sağlam böyrək və sağlam qadın" devizi altında həyata keçirilir. İnsanların sağlamlığının qorunmasında nefrologiya sahəsində görülən işlər çox vacib xarakter daşıyır. İlk olaraq, adınlarda hamiləlik dövrü, diabetik nefropatiya və s. problemlərə nefroloqlarımız tez-tez rast gəlirlər. Təbii ki, bu çətin problemi aradan qaldırmaq üçün onlar hər zaman bir-bir ilə sıx əlaqədə olurlar".



Azərbaycanda uşaq nefrologiyasında aparılan işlərdən danışan R.Bəylərov qeyd edib ki, bu sahə o qədər də ürəkaçan səviyyədə deyil: "Əlbəttə ki, bu sahədə müsbət işləri də vurğulamaq lazımdır. Belə ki, dövlət tərəfindən həyata keçirilən xüsusi layihələr öz nəticəsini verir. Nefrologiyaya artan marağı biz istər rezidentlər, istərsə də tələbələr arasında hiss edirik. Əvvəllər nefrologiya sahəsinə maraq o qədər də çox deyildi, amma son 10 ildə bu sahəyə marağın artdığının şahidi oluruq".

R.Bəylərov konfransın təşkil edilməsində professor Mehman Ağayevin də böyük zəhmətinin olduğunu vurğulayıb.

Daha sonra Səhiyyə Nazirliyinin baş nefroloqu, TTK-nın Nefrologiya və Efferent Terapiya Mərkəzinin rəhbəri, professor Mehman Ağayev çıxış edib.

M.Ağayev qeyd edib ki, bu gün insanlar arasında hər 10-11 nəfərdən birində böyrək çatışmazlığı müşahidə edilir: "Qadınlar arasında bu göstərici çoxluq təşkil edir. Hazırda 195 milyon qadın böyrək çatışmazlığından əziyyət çəkir. Hamiləlik dövründə meydana çıxan problemlər bu rəqəmi bir qədər də artırır. Ona görə də qadınlar hamiləlik dövründə mütləq böyrəklərində hansısa problemin olub-olmadığını müəyyən etmək üçün həkim-nefroloqa müraciət etməlidirlər".

Konfransın davamında M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının hemodializ şöbəsinin müdiri Fariz Babayev çıxış edib.

F.Babayev ilk olaraq, yeni yaradılan "Nefrologiyanın inkişafına yardım" İctimai Birliyinin nefrologiyanın inkişafına verəcəyi töhfələr barədə danışıb.

O qeyd edib ki, Azərbaycanda dializ sahəsində dövlət proqramına uyğun olaraq görülən işlər bu il də davam etdirilir.

Ölkəmizdə son illərdə aparılan araşdırmalar göstərdi ki, əsas xəstəliklər qrupuna şəkərli diabet, xroniki nefrit xəstəlikləri daxildir ki, bunlar da nəticədə böyrək çatışmazlığına gətirib çıxarır: "Bu gün Azərbaycanda 3406 xəstə hemodializ alır. Bakıda 6, regionlarda 35 hemodializ mərkəzi fəaliyyət göstərir. Yeni mərkəzlərin açılması hemodializ aparatlarının da sayının artmasına səbəb olub.

Ölüm faizi isə ötən illə müqayisədə bu il aşağı düşüb. Keçən il bu göstərici 20,2% təşkil edirdisə, bu il bu göstərici 18,4% -dir. Bu, müsbət göstəricidir. Bu da peşəkar nefroloqların səyi nəticəsində baş verib".

Konfrasın davamında "Xronik qlomerulonefriti olan azərbaycanlı uşaqlarda nefrin (NPHS1) və podosin (NPHS2) genlərində polimorfizmlərin heterogenliyi", "Diabet Nefropatiyasının mikroalbuminuriya dövründə böyrəklərin funksional vəziyyəti", "Hemodializ zamanı seçimli ultrafiltrasiyanın tətbiqinin əhəmiyyəti", "Lipopolisaxariden dotoksinin təsirindən böyrəklərdə baş verən patomorfoloji dəyişikliklərin xüsusiyyətləri", "Hiperurikemiya müşahidə edilən böyrək xəstəliklərinin müalicəsində Adenurikin tətbiqi təcrübəsi" mövzularında elmi məruzələr dinlənilib.

Konfransın sonunda qarşıda duran vəzifələr və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb. Bildirib ki, bu işlərin həyata keçirilməsi gələcəkdə nefrologiyanın respublikamızda daha da inkişaf etməsinə təkan verəcəkdir.

# Ümumdünya İmmunitet Günü qeyd edilib

**Martın 1-də Tədris Terapevtik Klinikada Ümumdünya İmmunitet Gününə həsr edilmiş tədbir keçirilib.**



Tədbiri açan klinikanın tədris və elmi işlər üzrə direktor müavini, dosent Adil Nuriyev bildirib ki, Dünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2002-ci ildən etibarən hər il martın 1-də Ümumdünya İmmunitet Gününün qeyd edilməsində əsas məqsəd immun sisteminin əhəmiyyəti, onun fəaliyyət xüsusiyyətləri və onu möhkəmləndirmək üsulları barədə əhalini məlumatlandırmaqdır.

II uşaq xəstəlikləri kafedrasının professoru Surxay Musayev tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, immunitet sistemi insan hələ ana bətnində olarkən formalaşmağa başlayır. Bizim ətrafımızda milyonlarla bakteriya, virus və allergenlər mövcuddur. Onlarla hər an üzləşirik, lakin bizi kənar "düşmənlərdən" qoruyan immun sisteminin sayəsində biz xəstələnmirik. Əgər immun sistemi olmasaydı, insan bir-birinin ardınca müxtəlif xəstəliklərə tutular, hər dəfə bu xəstəliklərə qarşı birinci dəfə olduğu kimi mübarizə aparmaq zərurəti yaranardı. Bununla bərabər, orqanizmdə stress yaradan və immun sistemini zəiflədən amillər də var. Məsələn yuxunun pozulması, qidalanmada tarazlığa riayət edilməməsi, fiziki gərginliyin düzgün seçilməməsi, ekoloji amillər, həmçinin sağlam həyat tərzindən imtina edilməsi bu qəbildəndir.



Professor S.Musayev, son dövrlərdə aparılmış araşdırmalar nəticəsində dünyanın bütün ölkələrində əhalinin 7-15 faizinin immunitetin zəifləməsindən əziyyət çəkdiyinin məlum olduğunu qeyd edib. Alimlər müəyyən ediblər ki, qoruyucu hüceyrələrin əksər hissəsi – təxminən 80 faizi mədə-bağırsaq boşluğunda yerləşir. Buna görə də tarazlanmış qidalanma möhkəm immunitetin əsaslarından biridir. İnsanın qida rasionunda tərəvəz, meyvə, sıyıqlar və ağartı məhsulları olmalıdır.

Klinik immunologiya kafedrasının professoru Gülnarə Nəsrullayevanın sözlərinə görə, immun sisteminin qaydada olmadığını göstərən əsas əlamətlər tez-tez soyuqdəymə, iki həftədən çox davam edən bronxitlər, burun-udlaq nahiyəsində iltihablar, uzun müddət davam dən subfebril hərarət (37-38 dərəcə), mədə-bağırsaq traktının fəaliyyətinin pozulması.

Professor G.Nəsrullayeva şirniyyatın immuniteti həddsiz zəiflətdiyini qeyd edib: «Rafinə edilmiş şəkərdən, müxtəlif konfetlərdən və qazlı şirin içkilərdən böyük miqdarda istifadə edən insanlar öz dişlərini korlamaqla yanaşı, həm də immun sistemi müxtəlif xəstəliklərə daha çox məruz qalır. Çay immunitetin gücləndirməsinə kömək edə bilər. Amerikalı tədqiqatçılar müəyyən ediblər ki, mütəmadi çay içmək immun sistemi hüceyrələrinin müqavimət qabiliyyətini beş dəfə artırır. Bu, çayın tərkibindəki amin turşusunun sayəsində baş verir".

Səhiyyə Nazirliyinin Gigiyena və Epidimiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva deyib: "Qış mövsümünə xas olan kəskin respirator infeksiyaları Azərbaycanda mövsümü olaraq qeydə alınır".

O, bildirib ki, təhlilə əsasən 2017-ci ilə 2016-cı illə müqayisə edəndə on faizdən yuxarı azalma müşahidə olunur: "Eyni zamanda keçən ilin müvafiq dövrü ilə müqayisə edəndə bu il azalma müşahidə olunur. Buna baxmayaraq, biz görürük ki, insanlar arasında xəstəlik var. Bəzi hallarda bu xəstəlik uzun müddət 1-2 həftə çəkir. Çünki insanlar vaxtında həkimə müraciət etmir, yataq rejiminə riayət etmir, həkim təyinatı ilə müalicə olunmurlar. İnsan düzgün müalicə olunmayanda xəstəliyin müddəti uzanır və bronxitə, pnevmaniyaya çevrilə bilir".

A.Əliyeva əlavə edib ki, infeksiyaların uşaqlar arasında da yayılması qeydə alınıb: "Xəstələnən uşaqların əksəriyyəti mütəşəkkil kollektivlərə gedən uşaqlardır. Kollektivə xəstə uşaq gəlirsə, digər uşaqların da yoluxmasına səbəb olur".

Tədbirin sonunda jurnalistləri maraqlandıran suallara cavab verilib.

**ATU-nun mətbuat xidməti**

# Eşitmə Sağlamlığı Günü ilə bağlı tədbir

**◆ Martın 2-də Azərbaycan Tibb Universitetinin Cərrahiyyə Klinikasında Beynəlxalq Qulaq və Eşitmə Sağlamlığı Günü ilə əlaqədar tədbir keçirilib.**



Tədbiri LOR kafedrasının müdiri, professor Vəfa Pənahi giriş sözü ilə açaraq beynəlxalq günün əhəmiyyətindən danışıb: "Dünya əhalisinin 6 faizi məhz bu xəstəliyə düçar olub. Azərbaycanda 10 min nəfər insan eşitmə problemlərindən əziyyət çəkir."

Klinikanın qulaq, burun, boğaz şöbəsinin müdiri Murad Şıxəliyev Dünya Səhiyyə Təşkilatının məlumatını diqqətə çatdırıb. O qeyd edib ki, dünya əhalisinin 365 milyonu karlıq və eşitmə problemlərindən əziyyət çəkir, onlardan 32 milyonunu uşaqlar təşkil edir. Vaxtında profilaktik tədbirlər görülməməsi və müalicə olunmaması səbəbindən yaranan başqa xəstəliklərə görə hər il 750 milyard dollar vəsait itirilir: "Bu rəqəm mövcud problemin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərir. Bu sahədə Azərbaycan Tibb Universitetində xeyli işlər görülüb, Eşitmə Mərkəzi açılıb. Burada təkcə adi qulaq əməliyyatları deyil, həm də anadangəlmə ağır dərəcədə eşitmə zəifliyi olan uşaqlar üzərində cərrahi müdaxilələr aparılıb."

Universitetin LOR kafedrasının assisenti Afaq Şadlinskaya eşitmə probleminin yaranma səbəblərindən danışıb. O bildirib ki, bu problem əsasən irsi faktorlar və qohum nikahları nəticəsində yaranır: "Ölkəmizin elə bölgələri, kəndləri var ki, orada az qala hər iki evdən birində eşitmə problemi var. Bundan başqa, qanda bilurubinin miqdarının 30 faizdən çoxluğu, hamiləlik patologiyaları və zərərli dərman preparatlarının qəbulu eşitmə əngəlinə səbəb olur. Həmin problemin aradan qaldırılması üçün yeganə yol – koxlear implantasiya əməliyyatıdır".

A.Şadlinskaya deyib ki, əməliyyat bahalı olduğuna görə, 2015-ci ilin oktyabrında sensonevral ağır eşitmə ilə əlaqədar yaradılan xüsusi komissiya ölkəmizdə həmin problemdən əziyyət çəkən uşaqların müayinə və müalicə edilməsi, koxlear implantasiya əməliyyatı aparılması ilə məşğul olur: "Həmin vaxtdan indiyədək 450-dən artıq uşaq müayinədən keçib və onlardan 59-u dövlət hesabına əməliyyat olunub. Əməliyyatın aparılması üçün ən əsas şərtlərdən biri uşağın 1-4 yaş intervalında olmasıdır, çünki həmin yaşdan sonra nitq mərkəzi bağlanmağa başlayır. Problemdən



əziyyət çəkən 4 yaşına qədər uşaqlar hər iki qulağında eşitmə cihazından istifadə etməlidir".

Kafedranın rezidenti Esmira Qasımova sindromik ağıreşitmə tipləri, Vaardenburq sindromu, anadangəlmə sensonevral ağıreşitmə halları, habelə eşitmə probleminə səbəb ola bilən digər amillərdən danışıb, onun diaqnostikası və müalicə formaları barədə məlumat verib.

Tədbirdə koxlear implantasiyanın üstünlüklərindən bəhs edən videomaterial nümayiş etdirilib. Klinikanın əməkdaşları xəstəliyin ayrı-ayrı simptomları, diaqnostikası və müalicə formaları barədə məlumat veriblər.

# IV Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı keçirilib

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında IV Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı keçirildi.**



Tədbiri klinikanın direktoru, professor Surxay Hadıyev açaraq, konfransın önəmindən danışdı. O bildirdi ki, Tədris Cərrahiyyə Klinikasının rəhbərliyi olaraq belə bir konfransın açılışını alqışlayır: "Bütün ölkələrdə olduğu kimi, Azərbaycan və Türkiyədə də universitet klinikaları orqan nəqlinin tətbiqində öndə gedir. Biz çox şadıq ki, belə uğurlu əməkdaşlıqlarımız var. Professor Sezai Yılmazın rəhbərliyi altında klinikamıza gələn bütün qonaqlara təşəkkür edir, konfransın işində onlara uğurlar diləyirəm".



I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov konfransın Azərbaycan və Türkiyə dostluğu çərçivəsində baş tutduğunu dedi: "Bu tədbir artıq ənənə halını alıb. İlk konfransı 2015-ci ildə, klinikamız fəaliyyətə başlayanda keçirdik. Hər il fevral-mart ayları arasında bu konfransı təşkil edirik. Malatyanın Qaraciyər Nəqli İnstitutu ilə bizim çox geniş, hərtərəfli əlaqələrimiz var. Həm tədris, həm elm, həm də praktiki əlaqələr qurmuşuq. Azərbaycandan, xüsusilə Tibb Universitetindən təxminən 10-dan çox əməkdaşımız Qaraciyər Nəqli İnstitutunda olub, ixtisaslaşma keçiblər. 2012-ci ildən bizim İnönü Universiteti ilə əməkdaşlıq müqaviləmiz var. Bu əməkdaşlıq sayəsində əməkdaşlarımız həmin ali təhsil ocağında ixtisaslaşma keçirlər. Bizim elmi əlaqələrimiz də davam edir. Ortaq elmi tədqiqat işləri aparılır".

Türkiyənin Malatya Universitetinin Qaraciyər Nəqli İnstitunun professoru Sezai Yılmaz Bakıda olmaqdan, Tədris Cərrahiyyə Klinikada bu mövzuda konfransda iştirak etməkdən qürur duyduğunu dedi: "Burada qarşılıqlı fikir mübadiləsi aparacağıq. Qaraciyər transplantologiyası haqqında ətraflı danışıqlar gedəcək, qaraciyər nəqlinin problemləri, həlli yolları ilə bağlı bildiklərimizi danışıb, müzakirə edəcəyik. Ümid edirəm ki, bu hamımız üçün faydalı olacaq".

Konfransda İnönü Universiteti Qaraciyər Transplantasiyası İnstitutunun dosenti Fatih Özdemir "Qaraciyər transplantasiyası", TCK-nın assistenti Ruslan Məmmədov "Qaraciyər transplantasiyası sonrası biliar fəsadlar, cərrahi aspektləri", İnönü Universiteti Qaraciyər Transplantasiyası İnstitutunun professoru Cəmaləddin Aydın "Pediatrik Qaraciyər transplantologiyası", İnönü Universiteti Qaraciyər Transplantasiyası İnstitutunun professoru Ramazan Kutlu "Qaraciyər transplantasiyası sonrası biliar fəsadlar, radioloji aspektləri", İnönü Universiteti Qaraciyər Transplantasiyası İnstitutunun professoru Burak Işık "HCC Qaraciyər transplantasiyası" mövzusunda məruzələrlə çıxış etdilər.

# Xaricdən gələn nümayəndələr ATU tərəfindən mükafatlandırıldı

**Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin nümayəndələri Azərbaycan Tibb Universitetinin prorektorlarının qonağı olub.**



ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev qonaqlara bu ali təhsil ocağında mühazirə oxuduqları üçün minnətdarlığını bildirdi. O, gələcəkdə əlaqələrin daha da genişlənməsinin zərurətindən danışdı: "Mən inanıram ki, gələcəkdə bizim əlaqələrimiz daha da sıxlaşacaq, müəllim, həkim mübadiləmiz davamlı olacaq. ATU-nun hazırda mövcud olan 4 klinikaları ilə yanaşı, 6 tədris binası, inzibati binası, 1700 yerlik 6 tələbə yataqxanası var. Təkcə 11 mərtəbəli müasir tipli tədris binası 2500 tələbəni qəbul etmək imkanına malikdir. Burada universitetin bir sıra nəzəri kafedraları, internet mərkəzi, 1 milyona yaxın kitab ehtiyatı olan unikal kitabxanası var".

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov qonaqlara təhsil prosesinin qaydaları və strukturu haqqında məlumat verdi.

Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin Onkologiya və vizual diaqnostika şöbəsinin kurs rəhbəri, Regional Perinatal Mərkəzin doktoru, tibb elmləri namizədi Yerbolat İztleuov ATU-da olduğundan məmnunluq hissi duyduğunu vurğuladı. O, təmsil etdiyi universitetin fəaliyyəti, oradakı təhsil prosesi haqda məlumat verdi.

Görüşün sonunda qonaqlar ATU tərəfindən sertifikartla mükafatlandırıldılar.

Xatırladaq ki, Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin Onkologiya və vizual diaqnostika şöbəsinin kurs rəhbəri Yerbolat İztleuov və nümayəndəsi Lyubov Tuleqenova ATU-da II mamalıq ginokologiya kafedrasında elmi seminarda mühazirə oxuyublar.

# Tibbi Şuranın iclasında iki şöbənin hesabatı dinlənilib

**ATU-nun Tədris Terapevtik Klinikasında Tibbi Şuranın növbəti iclası keçirilib.**

İclasda çıxış edən direktor, professor Hüseyn Qabulov klinikada görülən işlərlə bağlı danışıb və bildirib ki, istər tədris sahəsində, istərsə də tibbi xidmətdə son vaxtlarda xeyli irəliləyişlərə nail olunub.

"Rezidentlərin təhsili, onların elmi biliklərə yüksək səviyyədə yiyələnməsi üçün klinikamızda hər cür şərait yaradılıb. Ölkənin ən aparıcı mütəxəssiləri, həkim-professorları burada çalışır.

Düşünürəm ki, onların sayəsində klinikamızda həm tədris, həm də tibbi xidmət baxımından bir çox sahədə nailiyyətlərə sahib olmuşuq. Eyni zamanda klinikamızın laboratoriyasında da bir sıra yeniliklər tətbiq edilib. Belə ki, bu yaxınlarda Amerikanın tanınmış bir tibb mərkəzi ilə əməkdaşlığa başlayacağıq".



Professor H.Qabulov qarşıdakı günlərdə "Dream doctors" adlı təşkilatla əməkdaşlığı davam etdirəcəklərini deyib: "Təşkilatla əlaqələrimiz bir neçə müddətdir ki, davam edir. Keçən il onların nümayəndəsi olan Yan Press klinikamızda seminar da keçirtdi. Və əməkdaşlığımızın davamı olaraq, yenidən bu şirkətdən klounlar bura dəvət olunub. Hansı ki, onlar xəstə uşaqlarla məşğul olacaqlar, onların psixoloji vəziyyətini dəyərləndirəcəklər. Təşkilat İncəsənət Universitetinin əməkdaşları ilə birlikdə klinikada treninqlər də keçirdəcək".

Daha sonra gündəlikdə olan birinci məsələ ilə bağlı direktorun müalicə işləri üzrə müavini Samir Allahverdiyev çıxış edərək klinikanın fevral ayındakı müalicə-diaqnostik fəaliyyəti haqqındakı hesabatı şura üzvlərinin diqqətinə çatdırıb.

Fevral ayı ərzində klinikanın şöbələrində stasionar və gündüz rejimdə müalicə alan pasiyentlər barədə ətraflı məlumat verən S.Allahverdiyev şöbələrin fəaliyyəti haqqında danışıb və bildirib ki, bu ay ərzində xəstə qəbulunun sayında bir çox şöbələrdə artım müşahidə edilib.



Direktorun elm və tədris işləri müavini, dosent Adil Nuriyev çıxış edərək Tibb Universiteti rezidentlərinin 6-cı elmi-təcrübi konfrans ilə bağlı (6-cı ATUREK) danışıb.

A.Nuriyev bildirib ki, klinikanın rezidentləri hər zaman yüksək səviyyədə bu konfransa hazırlaşır: "Onlar üçün daima seminarlar keçirilir və bu zaman onlara diaqnozu ağır olan xəstələr göstərilir, eyni zamanda klinikada nadir rast gəlinən xəstəliklər müzakirə olunur. Ona görə də düşünürəm ki, qarşıda qoyulan hədəflərə çatmaq üçün birlikdə çalışmalı və bu konfransa yenə də yüksək səviyyədə hazırlıqlar görməliyik".

İclasın davamında iki şöbənin 2017-ci ilə həsr olunmuş illik hesabatı dinlənilib.

İlk olaraq Ürək Damar Mərkəzinin bir illik fəaliyyəti ilə bağlı Kardiologiya şöbəsinin müdiri, dosent Fərid Əliyev çıxış edib.

O, mərkəzdə tətbiq edilən yeniliklər, əldə olunan elmi nailiyyətlər, üzv olduqları təşkilatlar, keçirilən beynəlxalq konfranslar, təşkil edilən online registrlar, kardio TV proyekti, yaradılan Azərbaycan Aritmiya Alyansı, həmçinin mərkəz həkimlərinin xarici mətbuatda dərc olunan məqalələri ilə bağlı məlumatları şura üzvlərinin diqqətinə çatdırıb.

F.Əliyev qeyd edib ki, məqsədimiz gələcəkdə daha böyük işlərə imza atmaqdır: "Mərkəz ölkəmizdə ürək damar xəstəlikləri proseduralarını bir arada icra edən və kardiologiya sahəsində fəaliyyət göstərən yeganə elmi mərkəzdir. Mərkəzimizdə icra olunan proseduralar son illərdə daha da yüksək səviyyəyə çatıb. Belə ki, anadangəlmə ürək qüsurunun bağlanması son zamanlar həkimlərimiz tərəfindən geniş şəkildə icra edilir".

Daha sonra Efferent Terapiya Mərkəzinin bir illik hesabatını şura üzvlərinin diqqətinə həmin şöbənin həkimi Elgün Həziyev çatdırıb.

O, mərkəzdə icra edilən proseduralar və bunların yüksək səviyyədə həyata keçirildiyini vurğulayıb: "Mərkəzin rəhbəri professor Mehman Ağayevin başçılığı altında son zamanlar bir çox yeniliklər tətbiq edilib. Eyni zamanda Nefroloqlara Yardım İctimai Birliyi yaradılıb. Bu birliyin də əsas məqsədi gənc nefroloqlara yardım etmək və onların peşəkar səviyyədə yetişdirilməsinə nail olmaqdır".

İclas işini cari məsələlərin müzakirəsi ilə yekunlaşdırıb.

**ATU-nun mətbuat xidməti**

# “Həyatla oyun” tamaşası nümayiş olunub

**Martın 14-də Azərbaycan Tibb Universitetində Gənclər və İdman Nazirliyinin və Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının təşəbbüsü ilə Bakı Uşaq Teatrı tərəfindən səhnələşdirilən “Həyatla oyun” teatr tamaşası nümayiş olunub.**





İlk öncə “Həyatla oyun” tamaşasına quruluş verən İntiqam Soltan qeyd edib ki, narkomanlıq yoluxucu xəstəlikdir və QİÇS-ə aparan dəhşətli bir yoldur: “Azərbaycanda narkomaniyadan əziyyət çəkənlərin sayı rəsmi statistikada göstəriləndən dəfələrlə çoxdur, müalicəsi çox çətin olan bu xəstəlik get-gedə yayılmaqdadır. Halhazırda narkotik ticarətçiliyi silah və neft alverindən sonra dünyada ən çox gəlir gətirən sahədir. Gənc nəsil onun törətdiyi faciələri daha dərindən dərk etsin deyə, biz bu tamaşanı ərsəyə gətirdik. Ümidvaram ki, siz narkomaniya ilə mübarizəyə həsr olunan bu tamaşadan faydalanacaqsınız”.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasında işçi qrupunun məsul nümayəndəsi Raqif Allahverdiyev narkomaniyanın sosial-iqtisadi inkişafa mənfi təsir göstərdiyini və cinayətkarlığın artmasına səbəb olduğunu söyləyib. O, tələbələrin “ağ ölüm”lə mübarizə aparmaları üçün göstərilən tamaşanın müsbət izlər qoyacağına da əmin olduğunu deyib.

R.Allahverdiyev bildirib ki, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran narkomaniya dünyada və elcə də ölkəmizdə sürətlə yayılır, bunun qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi zəruridir. Bu tamaşanın meydana gələməsi heç də təsadüfi deyil, əksinə dövrün tələbi səviyyəsindən irəli gələn bir acı reallıqdır.

Sonra Bakı Uşaq Teatrının aktyorları tərəfindən “Həyatla oyun” teatr tamaşası nümayiş olundu.

Tamaşada bir universitet tələbəsinin narkotikə düçar olduğu və bu bəlanın qurbanına çevrildiyindən ətraflı bəhs edilir. Əsər öz xarakter etibarilə gənclərin maddi- mənəvi həyatında və eləcə də fiziki sağlamlığında böyük rola malikdir. Tamaşa insanların bu faciəyə düşməməsi üçün maarifləndirimə məqsədi daşıyır.

Sonda universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bu tamaşanın nümayişinə görə Gənclər və İdman Nazirliyinə, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına və eyni zamanda Bakı Uşaq Teatrının kollektivinə universitetin rəhbərliyi adından dərin minnətdarlığını bildirib. O, cəmiyyətin ən böyük problemlərindən biri olan narkomaniya və QİÇS-lə mübarizənin zəruriliyini bir daha vurğulayıb, bu tamaşanın tələbələri maarifləndirməkdə və onların bu bəla ilə mübarizə işində daha qətiyyətli addımlar atmasında əhəmiyyətli rolu olacağını diqqətə çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

## Tələbələrimiz 8 marta həsr olunmuş tədbirə qatılıblar

**8 Mart Beynəlxalq Qadınlar Günü Azərbaycan Tibb Universitetinin tələbələri tərəfindən də geniş miqyasda qeyd edilib. “Meridian” incəsənət mərkəzinin təşkilatçılığı ilə Bakı İdman Sarayında baş tutan bayram tədbirində müxtəlif ali məktəblərin tələbələri iştirak ediblər.**




ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elvin Kərimovun sözlərinə görə, təntənəli bayram mərasimində universitetin 300-ə yaxın tələbəsi işitrak edib: “Bayramın təşklində əsas məqsəd qadınları bir daha təbrik etmək, onların cəmiyyət, ailə üçün nə dərəcədə əhəmiyyətli olduğunu hər kəsə xatırlatmaqdan ibarət idi. Xanımları qorumaq, onların hüquqlarını müdfaiə etmək hər birimizi borcudur. Bayram günü bir daha bu məqamlara diqqət yetirildi, qadınların ünvanına gözəl sözlər səsləndirildi, onlara arzularımızı çatdırdıq”.

Təntənəli bayram tədbirində tanınmış müğənnilər populyar mahnılarını ifa ediblər. Bundan əlavə, qonaqlar əyləncəli oyunlarda iştirak ediblər, bəzi qadınlara hədiyyələr təqdim olunub. Tədbirdə tələbələrin asudə vaxtını səmərəli keçirməsinə şərait yaradılıb.

Qeyd edək ki, “Meridian” İncəsənət Mərkəzinin məqsədi əsasən milli dəyərlərimizin, adət-ənənələrimizin, mədəni irsimizin daha da inkişafı, əlamətdar günlərin və hadisələrin təşkil edilməsi və keçirilməsidir.

## ATU-nun xarici tələbələri Gəncədə “Novruz mühazirəsi”ni dinləyiblər

**Martın 6-da Təhsil Nazirliyinin təşkilatçılığı ilə Gəncə şəhərində “Milli kimlik sualından milli dövlətçiliyə: müstəqilliyin çətin yolu” mövzusunda növbəti “Novruz mühazirəsi” keçirilib. Ölkəmizin ali məktəblərində təhsil alan Türkiyə, Rusiya, Hindistan, Türkmənistan, Çin və digər ölkələrdən 30 nəfər əcnəbi tələbə də iştirakçılar sırasında olub. Onlar arasında Azərbaycan Tibb Universitetinin iki tələbəsi - İordaniya vətəndaşı Mai Zakaria Jubran İbrahim və Finlandiya vətəndaşı Həsənağa Əliyev də olub.**



Tədbirdən öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib və önünə gül dəstələri qoyulub. Azərbaycan Dövlət Aqrar Universitetində təşkil edilən tədbirdə qonaqlar əvvəlcə Azərbaycan Xalq Cümhuriyyəti guşəsi ilə tanış olublar.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev, təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsini tarixi hadisə adlandırıblar. Qeyd olunub ki, xaricdə təhsil siyasətinin, eləcə də milli kadrların hazırlanmasının həmin dövrdə strateji hədəflərindən biri olub. Məhz bu baxımdan Bakı Dövlət Universitetinin açılması ilə yanaşı, parlamentin qərarı ilə ali təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrə yola salınıb.

Sonra iştirakçılar tarix elmləri doktoru, professor Solmaz Rüstəmova - Tohidinin “Milli kimlik sualından milli dövlətçiliyə: müstəqilliyin çətin yolu” mövzusunda mühazirəsini dinləyiblər. Mühazirədən sonra qonaqlar Gəncə Dövlət Filarmoniyasının solistlərinin ifasında konsert proqramını dinləyiblər.

Ölkəmizdə təhsil alan əcnəbi tələbələr Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxt şəhəri olan qədim Gəncədə Cavad xan türbəsi, Şah Abbas məscidi, “Çökək hamamı” və Gəncə Dövlət Filarmoniyası ilə tanış olublar. Həmçinin böyük Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi ziyarət edilib, tələbələrə dahi şairin həyatı, yaradıcılığı və məqbərə haqqında məlumatlar verilib.

Finlandiya vətəndaşı Həsənağa Əliyev ATU-nun stomatologiya fakültəsinin 1-ci kurs tələbəsi ilk dəfə Gəncədə olduğunu, bu qədim şəhəri çox bəyəndiyini bildirir. Onun sözlərinə görə, bu səfər ona Azərbaycanın tarixi ilə daha yaxşı tanış olmağa imkan verib. Həm də yeni tanışlıqlar, yeni əlaqələr qazandırıb.

Təhsil Nazirliyi 2016-cı ildən etibarən “Novruz mühazirələri” keçirir. Mühazirələrdə millət vəkilləri, tanınmış alimlər, beynəlxalq və yerli təhsil ekspertləri tərəfindən Azərbaycanın tarixi, elmi, mədəniyyəti və təhsili üzrə müxtəlif məsələlər populyar dildə ictimaiyyətə çatdırılır.

## ATU-nun tələbələri stolüstü tennis turnirinin qalibi seçilib

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və Azərbaycan Texniki Universitetinin Tələbə Gənclər Təşkilatının (AzTU) təşkilatçılığı ilə Cümhuriyyətin 100 illiyinə həsr olunmuş stolüstü tennis turniri keçirilib.**



Azərbaycan Tibb Universitetinin də tələbələrinin iştirak etdiyi turnirdə çıxış edən ATGTİ-nin sədr müşaviri Hüseyn Babayev tədbir haqqında danışıb. O, iştirakçıları yarış barədə məlumatlandırıb və onlara qaydaları izah edib.

Turnirdə I yerin qalibi ATU Tələbə Gənclər Təşkilatının MPF2 üzrə fakültə sədri Şəmsi Axundov, II yerin qalibi ATU tələbəsi Hossein Shapouran, III yerin qalibi isə Azərbaycan Texniki Universitetinin tələbəsi Kənan İsmayılov olub.

Yarışın qalibləri diplomlarla təltif edilib.

## “Debat” klubun üzvləri təlimlərə start verib

**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən “Debat” klubun üzvləri aprel ayında univerisitetlərarası keçirilməsi nəzərdə tutulan yarışlara qatılmaq üçün təlimlərə başlayıb.**



Bu barədə “Təbib”ə məlumat verən klubun rəhbəri Nigar Hüseynli bildirib ki, əvvəlcə klub üzvləri öz aralarında yarış keçirəcək: “Yarışda ən yaxşı göstəriciləri olan 6-9 nəfər seçiləcək. Apreldə isə keçiriləcək univeristetlərarası yarışda iştirak edəcək digər universitetlərin komandaları ilə yarışacaqlar.”

**ATU-nun mətbuat xidməti**

# İSTEDADLI ANATOM – ALİM, QAYĞIKEŞ MÜƏLLİM



**Ömrünü, gününü tibb elminin ən çətin, eyni zamanda ən məsuliyyətli və şərəfli sahələrindən birinə – İnsan anatomiyası elminin öyrənilməsinə, tədrisinin aparılmasına, muzey preparatlarının təşrihinə, onların qorunub saxlanılmasına həsr edən zəhmətkeş alimlərdən, qayğıkeş və əməksevər müəllimlərdən biri də Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının həmkarlar təşkilatı qrupunun mədəni-kütləvi işləri üzrə məsul üzvü, kafedra iclaslarının katibi, tibb elmləri namizədi, dosent Misir İsmayıl oğlu Bayramovdur.**

M.Bayramov 1958-ci il mart ayının 16-da Azərbaycanın paytaxtı Bakı şəhərində anadan olub. Həkimliyə olan həvəsi onu ali tibb təhsili almağa sövq edib və o, 1975-ci ildə orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsinə daxil olub. M.Bayramov 1981-ci ildə bu ali tibb təhsili müəssisəsini fərqlənmə diplomu ilə bitirərək, psixonevrologiya ixtisası üzrə bir illik internatura kursu keçib, 1982-1983-cü illərdə Gəncə şəhər Təcili tibbi yardım stansiyasında çağırışçı sahə həkimi vəzifəsində çalışıb, 1983-cü ilin dekabr ayında İnsan anatomiyası kafedrasında aspiranturaya qəbul olunub, aspiranturanı bitirdikdən sonra kafedranın assistenti vəzifəsini yerinə yetirməyə başlayıb. Misir müəllim 1987-ci ilin yay tətili zamanı Bakı şəhərində fəaliyyət göstərən Tələbə-inşaat dəstəsinin komandiri təyin edilib, respublika üzrə keçirilən dəstələrarası yarışda yüksək nəticələr əldə etdiyinə görə ATİ-nin rektoru tərəfindən ona, şəxsi işinə yazılmaq şərti ilə, təşəkkür elan olunub.

M.Bayramov 1990-cı ildə kafedranın müdiri professor G.Hacıyevin elmi rəhbərliyi altında Tbilisidə "Dil-udlaq siniri və onun şaxələrinin makromikroskopik anatomiyası, mieloarxitektonikası" mövzusunda dissertasiya müdafiə edib, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülüb.

Perspektivli alim kafedrada aspirantlıqdan assistent, baş müəllim və dosent vəzifələrinə qədər yüksələrək, zəngin və şərəfli bir elmi-pedaqoji yol keçib. Kafedra rəhbərliyinin etimadını doğruldan, bütün tapşırıqları səbir və təmkinlə yerinə yetirən, bacarıqlı elmi işçi, qayğıkeş müəllim, yorulmaz ictimai təşkilatçı kimi özünü göstərən gənc alim illər keçdikcə kafedranın aparıcı mühazirəçilərindən, orijinallığı ilə seçilən müəllimlərindən birinə çevrilib. Alim 85-dən çox elmi əsərin, Stomatologiya fakültəsi tələbələri üçün nəzərdə tutulan iki cildlik dərs vəsaitinin, "Klinik anatomiya" adlı kitabın, "Nəzəri və klinik anatomiyanın eponemik terminləri" lüğətinin, ayrı-ayrı fakültələr üzrə yazılmış test kitabçalarının, həmçinin 3 tədris-metodiki vəsaitin və s. həmmüəlliflərindəndir. 2010-cu ildən kafedranın dosenti vəzifəsində çalışan M.Bayramov müvəffəqiyyətlə yerinə yetirdiyi elmi-pedaqoji işlərlə yanaşı, kafedranın ictimai həyatında da yaxından iştirak edir.

Ömrünün 60-cı baharını gənclik həvəsi, tükənməz enerji, gələcəyə inam hissələri ilə, nəcib duyğularla qarşılayan Misir müəllimi bu yubiley münasibəti ilə ürəkdən təbrik edir, Ulu Tanrıdan ona möhkəm cansağlığı, uzun ömür diləyir, elmi-pedaqoji fəaliyyətində yeni nailiyyətlər arzulayırıq.

*İnsan anatomiyası kafedrasının əməkdaşları*

# Kollektivin rəğbətini qazanan alim



**Azərbaycan Tibb Universitetinin Biologiya kafedrasının dosenti Rahib Əliyevin bu günlərdə anadan olmasının 80, pedaqoji fəaliyyətinin isə 50 ili tamam olur.**

Rahib Əşrəf oğlu Əliyev 1938-ci il martın 8-də Masallı rayonun Mahmudavar kəndində anadan olub. 1957-ci ildə Mahmudavar kənd orta məktəbini bitirən R.Əliyev 1957-1960-cı illərdə hərbi xidmətdə olmuş, Odessada Hərbi Aviasiya məktəbində təhsil alaraq təyyarə radisti ixtisasına yiyələnmişdir. O, 1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1966-1969-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun aspirantı (əyani) olmuş, 1972-ci ildə Biologiya elmləri namizədi elmi adını almışdır.

1970-ci ildən həyatını Azərbaycan Tibb Universitetinə bağlayan Rahib müəllim biologiya kafedrasında assistent, baş müəllim və 1980-ci ildən etibarən həmin kafedrada dosent vəzifəsində çalışır.

O, həmçinin 2000-ci ildə UNESKO-nun Beynəlxalq Universitetinin professorudur.

R.Əliyev 15 dərslik, 4 dərs vəsaiti və 100-dən çox elmi məqalələrin müəllifidir. Tibb Universitetində işlədiyi bu illər ərzində minlərlə tələbə onun mühazirələrindən bəhrələnmiş və bacarıqlı həkim kimi Azərbaycanın və dünyanın müxtəlif yerlərində insanların sağlamlığının keşiyində dayanır.

R.Əliyev, Azərbaycan Tibb Universitetinin professor müəllim heyətinin və tələbələrin hörmətini qazanmışdır.

Rahib müəllim gözəl yaddaşa, fitri istedada malik alim olmaqla, paxıllıq prizmasından uzaq və öz səmimiyyəti ilə seçilən bir insandır. Dost yüksəlişinə sevinən, səviyyəsi vəzifəsindən uca olanlara tərif deməyi bacaran insandır.

*Tibbi biologiya və genetika kafedrasının əməkdaşları*

# "Fulbright" proqramı çərçivəsində seminar keçirilib

Martın 12-də "Fulbright" proqramı çərçivəsində ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında "İnfeksion xəstəliklərin epidemioloji analizi və sübuta əsaslanmış təbabət" mövzusunda seminar keçirilib.



Mühazirəni Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin bir qrup magistrantları qarşısında Amerikanın Viskonsin Lakers Universitetinin professoru, dr. Robert Jecklin deyib. Onun dediyi mühazirə magistrantlar tərəfindən maraqla qarşılanıb.

Seminarda Amerika, Azərbaycan, Qazaxıstan səhiyyəsinin təşkili, problemləri, gələcək perspektivlər və digər məsələlərlə bağlı məlumatlar müzakirə olunub.

Qeyd edək ki, qazaxıstanlı magistrantlar universitetlərarası anlaşmaya əsasən martın 5-dən 16-dək ATU-nun qonağıdır. Onların hər gün müxtəlif kafedralarda təşkil edilmiş elmi seminarlarda iştirak etməsi nəzərdə tutulub.

# Arterial təzyiqi normaya salmaq yolları

**Hipertoniya xəstəliyi damar tonusunun sinir-funksional pozğunluğu ilə əlaqədar arterial təzyiqin 140/90 mm civə sütunundan yüksək olmasıdır. Hipertoniya xəstəliyinə kişi və qadınlar arasında eyni dərəcədə və əsasən 40 yaşdan sonra rast gəlinir. Onu "ömrün payız çağının xəstəliyi" hesab edirlər. Lakin buna baxmayaraq hipertoniya son onilliklərdə bir qədər cavanlaşıb. Hipertoniyanın yaranma risklərinə sinir-psixi yüklənmələr, emosional gərginlik, uzunmüddətli stress, irsiyyət, azhərəkətlilik, piylənmə, alkoqol, siqaret və duzlu qidalardan istifadə daxildir.**



Hipertoniklər qidalanmaya da ciddi fikir verməlidirlər. C vitamini, kalsium və maqneziumla zəngin olan ərik, üzüm, alma, qarağat, əncir və s. meyvələri, kartof, lobya, xiyar, pomidor, kələm, yaşıl noxud, soya, qırmızı turp, yaşıl soğan və s. tərəvəzlər, kəsmik, süd məhsulları, yumurtanın ağı, yarma və qaynadılmış mal əti ilə daha çox qidalanmalı, yağlı qidalar, gün ərzində yarım çay qaşığından artıq xörək duzu, kremli şirniyyatlar, təzə çörək, tünd çay, kofe, kakao, şokolad, spirtli içkilər, konservlər, ədviyyatlar qəbul etməməlidirlər. Şəkər, duz, mürəbbə, bal, konfet, kərə yağı, yağlı xama qəbulu məhdudlaşdırılmalı, qidalanma rejimi gündə 4-5 dəfə olmalıdır.

AZƏRTAC bir sıra xalq təbabəti reseptlərindən istifadə etməklə qan təzyiqini normaya salmaq üsullarını verir.

1 xörək qaşığı bal 1 stəkan mineral suda həll edilərək üzərinə yarım limon şirəsi əlavə olunur. Prosedur 7-10 gün aparılır və müalicə müddətində bir həftə acqarına içilir.

2 stəkan quşüzümü giləmeyvələri 3 xörək qaşığı şəkər kirşanı ilə ovulur, qarışıq hər gün yeməkdən 1 saat əvvəl gündə bir dəfə yeyilir.

Hər gün 1 stəkan quşüzümü yeyilir və su ilə qarışdırılmış şəkildə 5-10 damcı yemişan çiçəklərinin spirtli çıxarışı qəbul edilir.

4 stəkan çuğundur şirəsi, 4 stəkan bal, 100 qram bataqlıq qurucası və 500 qram araq qarışdırılaraq 10 gün ağzı bağlı halda qaranlıq və sərin yerdə saxlanılır. Süzüləndən sonra bir qaba yığılır və gündə üç dəfə yeməkdən 30 dəqiqə əvvəl 1-2 xörək qaşığı qəbul edilir.

Hərəsindən 1 stəkan olmaqla çuğundur və kök şirəsi, 250 qram bal və 100 qram araq qarışdırılır, qarışıqdan 1 xörək qaşığı gündə üç dəfə qəbul edilir.

3 kiloqram soğan şirəsi çıxarılıb üzərinə 500 qram bal, 25 qram qoz arakəsməsi və yarım litr araq əlavə edilir. 10 gün saxlanılandan sonra gündə 2-3 dəfə 1 xörək qaşığı qəbul edilir.

10 qram basınağacı meyvələrinin üzərinə 1 stəkan qaynar su əlavə edilib 15 dəqiqə ağzı bağlı şəkildə qaynar su hamamında saxlanılır. Su hamamından çıxarılandan sonra 45 dəqiqə soyudulur, süzülür və gündə 3-4 dəfə üçdəbir stəkan qəbul edilir. Alınan dəmləmə 2 gün saxlanıla bilər.

Davamlı olaraq gündə üç dəfə 20-40 damcı gülümbahar çiçəyinin spirtli çıxarışını qəbul etmək qan təzyiqini normallaşdırır, eyni zamanda, baş ağrıları azalır, yuxu tənzimlənir və həyat tonusu artır.

100 qram tumsuz üzüm gilələri ət maşınından keçirilərək üzərinə 1 stəkan soyuq su əlavə edilir, 10 dəqiqə zəif ocaqda bişirilir. Qarışıq süzüləndən sonra alınan maye soyudulur və hamısı bütün gün ərzində qəbul edilir.

2 həftə yeməkdən 30 dəqiqə əvvəl gündə 3 dəfə üçdəbir stəkan quşarmudu meyvəsinin şirəsi qəbul edilir.

1 kiloqram quşarmudu meyvəsi yuyulub qurudulandan sonra 700 qram şəkər tozu ilə ovulur və gündə iki dəfə 75-100 qram yeyilir.

Qara qarağat şirəsi və ya giləmeyvələrinin dəmləməsi gündə 3-4 dəfə 1-4 stəkan qəbul edilir.

Bərabər miqdarda qarışdırılmış damotu otu, bataqlıq qurucası, yemişan çiçəkləri və öksəotu qarışdırılır, qarışıqdan 1 stəkanın üzərinə 1 stəkan qaynar su əlavə edilərək dəmlənir. Dəmləmə gündə üç dəfə yeməkdən yarım saat əvvəl 100 ml qəbul edilir.

Limon və ya portağalın tumları çıxarılandan sonra qabıqlı şəkildə əzilib püre halına salınır və zövqə görə şəkər tozu əlavə edilərək gündə üç dəfə yeməkdən əvvəl 1 çay qaşığı qəbul edilir.

1 stəkan xırdalanmış sarımsaq yarım litr arağın içərisində qaranlıq və isti yerdə saxlanılır, alınmış çıxarışdan 1 xörək qaşığı gündə üç dəfə yeməkdən əvvəl qəbul edilir.

3 ədəd baş sarımsaq və 3 ədəd limon ət maşınından keçirilib 1,25 litr qaynar suda dəmlənilir, ağzı sıx bağlanılır, vaxtaşırı qarışdırılaraq 1 sutka isti yerdə saxlanılır. Süzüləndən sonra yeməkdən yarım saat əvvəl gündə 2-3 dəfə 1 xörək qaşığı qəbul edilir.

Hipertoniya və ateroskleroz zamanı 2 ədəd iri baş sarımsaq xırdalanaraq üzərinə 250 ml araq əlavə edilir, 12 gün saxlayandan sonra gündə üç dəfə 20 damcı qəbul edilir. Dadını yaxşılaşdırmaq üçün üzərinə nanə cövhəri də əlavə etmək olar. Qəbul müddəti 3 həftədir.

Çay qaşığında 3 damcı aloe şirəsi qaynadılmış soyuq su ilə qarışdırılır və 2 ay gündə bir dəfə acqarına qəbul edilir.

20 qram xırdalanmış lobya qınının üzərinə 1 litr su əlavə edilib 3-4 saat su hamamında qaynadılır, soyudulub süzüləndən sonra gündə 4-5 dəfə yarım stəkan qəbul edilir.

10 qram bədrəncotu yarpağı, 20 qram qarğıdalı saçağı və yarım litr qaynar su minalı qabda qarışdırılır, 20 dəqiqə su hamamında saxlanılandan sonra süzülür, soyudulur və üzərinə 1 limonun şirəsi əlavə edilir, gündə 3 dəfə yeməkdən yarım saat əvvəl yarım stəkan içilir. Bir həftə qəbul ediləndən sonra 1 həftə fasilə verilərək yenidən başlanılır və 3 kurs müalicə aparılır.

Şahtərə otu nanə yarpağı ilə birlikdə 10 dəqiqə suda qaynadılır, əldə edilən maye süzülərək bir qaba boşaldılır, hazır mayenin yarım fincanı su ilə qarışdırılaraq içilir.

Yaşıl cirə yarpaqları sarımsaqla birlikdə möhkəm döyülərək əzilir, alınan qarışıq 15 dəqiqə qaynadılandan sonra süzülür, alınan maye bir qaba boşaldılır və soyudulur, bir stəkan suya yarım fincan qarışdırılaraq içilir.

Su ilə bərabər nisbətdə qarışdırılmış sirkədə corablar isladılır və gecə yatağa girməzdən əvvəl ayağa geyinilir, ayaqlar bərk bürünülür.

# Amerikalı alimin məruzəsi maraqla qarşılanıb

**ABŞ-ın Viskonsin Lakers Universitetinin professoru Robert Jecklin Azərbaycan Tibb Universitetində məruzə ilə çıxış edib.**



O, ictimai səhiyyə fakültəsinin VI kurs tələbələri və fakültənin kafedralarının professor-müəllim heyəti qarşısında "ABŞ-da uşaq və yeniyetmələrin sağlamlığının qorunması sahəsində ictimai səhiyyənin praktikası" mövzusunda danışıb. Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb. Amerikalı professor tələbə-müəllim heyətinin suallarını cavablandırıb.

Məruzəçi həmçinin ictimai səhiyyə ilə bağlı əlverişli perspektivlərin olduğunu qeyd edib, ABŞ-da tətbiq olunan bir sıra yeniliklərin Azərbaycan səhiyyəsinə gətirilməsi məsələsinə də toxunub.

Qeyd edək ki, R.Jecklin artıq bir aydır ki, ATU-nun qonağıdır. Fakültə dekanı, dosent Anar Ağayevin iştirakı ilə bir sıra görüşlərdə iştirak edib. O, universitetdə olduğu müddətdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalovla da görüşüb.

Qeyd edək ki, Robert Jecklin ATU-nun rektoru, professor Gəray Gəraybəylinin dəvəti ilə universitetin qonağıdır. Amerikalı professor ictimai səhiyyə fakültəsinin tibbi profilaktika ixtisasına aid olan kafedraların dərsliklərinin yenilənməsi, dərs proqramlarının modernləşdirilməsi işinin təşkilinə yardım etmək məqsədilə universitetimizə dəvət olunub.

Xatırladaq ki, sözügedən fakültə əvvəllər tibbi profilaktika fakültəsi adlanırdı. Bu fakültənin məzunlarının diplomu xarici ölkələrdə tanınmırdı. Lakin G.Gəraybəylinin əməyi nəticəsində universitetin aparıcı fakültələrindən biri olan tibbi profilaktika fakültəsinin adı ictimai səhiyyə fakültəsinə dəyişdirilib. Bu, həmin ixtisasa yiyələnən gənc həkimlərin diplomunun digər ölkələrdə tanınmasına yardım olacaq.

Hazırda İctimai səhiyyə fakültəsində həmin profilə uyğun fənlərin tədrisi istiqamətində işlər görülür.

**Qabil ABDULLAYEV**

# Yurdumuza Novruz gəlir

**Baharda Azərbaycana təşrif gətirən bütün turistlərin iştirak edə biləcəkləri ən əsas və parlaq hadisə Novruz bayramıdır. Təbiətin oyanışı, havaların istiləşməsi əsrlərboyu xalqımız tərəfindən geniş bayram edilib. Novruzun şərəfinə təntənələrə hazırlıq artıq fevralın sonlarında başlayır və bütün mart boyunca davam edir, martın 21-də - yaz gecə-gündüz bərabərliyi günündə bütün ölkə ərazisində başlanan xalq gəzintiləri bir neçə gün davam edir.**



## Etibarsız sayılır

İctimai səhiyyə fakültəsinin I kurs, $617^{a-1}$ qrup tələbəsi Cəfərov Qulaməli Ülfət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Xəlilli Mahirə Hüseyn qızına 1995-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $309^{a}$ qrup tələbəsi Dinç Erkan Ridvan oğluna Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız hesab sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $220^{a}$ qrup tələbəsi İjanka Daniel Onchenin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır

Hərbi tibb fakültəsinin II kurs, $1127^{b}$ qrup tələbəsi Əzizzadə Elmir Başarəddin oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $360^{a}$ qrup tələbəsi Mahmudova Nərgiz Zahid qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $209^{a}$ qrup tələbəsi Məmmədova Nigar Sədrəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $117^{a-13}$ qrup tələbəsi Quliyeva Nuranə Rəfail qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $117^{a-15}$ qrup tələbəsi Abışov Elmin Başir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $717^{i-2}$ qrup tələbəsi Yusif Əhməd Talat oğluna Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi və tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Xarici nümayəndə ATU-nun II mamalıq-ginekologiya kafedrasında mühazirə oxuyub

**Azərbaycan Tibb Universiteti ilə yaxın və uzaq xaricdə fəaliyyət göstərən tibb universitetləri arasında mütəmadi olaraq təcrübə mübadiləsinin aparılması artıq ənənəyə çevrilib. Tibbin ayrı-ayrı sahələri üzrə ixtisaslaşmış mütəxəssislər qarşılıqlı razılaşmalar əsasında təşkil olunan müxtəlif konfrans və seminarlara qatılır, mühazirələr oxuyurlar.**



Bu günlərdə isə Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin nümayəndə heyəti universitetimizin qonağı olub.

Martın 13-də həmin universitetin Onkologiya və vizual diaqnostika şöbəsinin kurs rəhbəri, Regional Perinatal Mərkəzin doktoru, tibb elmləri namizədi Yerbolat İztleuov II mamalıq-ginekologiya kafedrasında keçirilən elmi seminarda mühazirə oxuyub. Mühazirədə ginekologiyanın mövcud problemlərinə toxunulub və bu sahədə tətbiq edilən yeniliklərdən söhbət açılıb.

## M i n n ə t d a r l ı q

# İnsanlıqdan doğan şəfalı əllər

Hörmətli redaksiya, bu məktubu sizə ünvanlamaqla xəstəyə, ailə xoş münasibət bəsləyən bir həkim haqqında söz açmaq istəyirəm. Bu insan Azərbaycan Tibb Universitetinin məzunu, 17 saylı BŞX-nın baş həkimi, bu günlərdə yubileyini qeyd edən əməkdar həkim Rzayeva Elmira Şahsuvar qızıdır.

Məlumat üçün bildirim ki, mən uzun illərdi şəkərli diabet xəstəliyindən əziyyət çəkirəm. Vaxt olub ki, bu ağır xəstəlikdən yatağa da düşmüşəm. Bu çətin günlərimdə Elmira xanım heç bir təmənna ummadan evimizə gəlib, ya da dəfələrlə zəng edib səhhətimlə maraqlanıb. Bir sözlə, mənim sağlamlıq durumumda incə qəlbə malik bu gözəl insanın böyük zəhməti var.

Mən də fürsətdən istifadə edib 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Elmira xanımı və əllərindən şəfa tapdığım Mərkəzi Neftçilər Xəstəxanasının endokrinoloq həkimi Zəhra xanım Məhərrəmovanı səmimi qəlbdən təbrik edir, onlara işlərində müvəffəqiyyət və həyatda ən şirin nemət olan can sağlığı diləyirəm.

Ulu tanrıdan arzu edirəm ki, bütün həkimlərimiz adını çəkdiyim həkimlər kimi, onlara şəfa məqsədilə pənah gətirən xəstələrə belə diqqət və qayğı göstərsinlər!

**Məzahir Mustafa oğlu Məmmədov,**
*II qrup əlil*

# Ana muqəddəsdir, ana əzizdir

Həyatın bütün varlıqları möhtəşəm bir möcüzədirsə, Ana varlığı bütün möcüzələrin zirvəsindədir. Bəşər tarixində bütün insanlar ana qarşısında baş əyib, onun hər istəyini mütləq qaydada qəbul edib. Ana adlı möcüzəli varlığın önündə dahi insanlar, fatehlər, alimlər, fenomen şəxslər, hətta ən qəddar insanlar belə diz çöküb. Ananın hər arzusu, istəyi uğrunda mübarizə aparmaq, ona nail olmaq xalqımızın rifahını zirvələrə qaldırmaqdır.

**Müəllif: Məcid Namazov**




## Allah rəhmət eləsin!

ETM-in əməkdaşları iş yoldaşları, biologiya üzrə fəlsəfə doktoru Zeynəb xanıma həyat yoldaşı

**Hüseyn Vəliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları və klinik mikrobioloji laboratoriyanın kollektivi kafedranın dosenti Samir Cavadova nənəsi

**Münəvvər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Yaqut Hacıyevaya əzizi

**Umxanım xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın baş müəllimi Fatma Axundovaya bacısı

**Fəridə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tramatologiya və ortopediya kafedrasının əməkdaşları və tramatologiya şöbəsinin kollektivi kafedranın assistenti Cəfər Nəsirliyə anası

**Qızvəs xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Histologiya embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın əməkdaşı Vəfa Hüseynovaya atası

**Məlik Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800